# Şəhidlər əbədiyaşardır

**Xalqımızın istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizə tarixində 20 Yanvar faciəsinin öz yeri vardır. Azadlıq istəyi ilə ayağa qalxan xalq mərkəzi hakimiyyətin qəzəbinə tuş gəldi. Xalqımıza qarşı terrora əl atıldı, əhaliyə divan tutuldu. Bəşər tarixində ən qanlı cinayətlər törətmiş vəhşilərlə bir sırada dayanan satqın Qorbaçovun əmri ilə ölkəmizə ordu yeridildi, millətin iradəsini qırmaq üçün ağlagəlməz vəhşiliklər törədildi.**

Milli azadlıq hərəkatının başlanmasına, geniş vüsət almasına, xalqımızın siyasi fəallığının dirçəlməsinə səbəb olan ən mühüm hadisə qondarma Dağlıq Qarabağ probleminin ortaya atılması idi. Bu inzibati ərazinin Azərbaycanın tərkibindən çıxarılmasına erməni separatçılarının növbəti dəfə cəhd göstərməsi ulu öndərimiz Heydər Əliyevin sovet rəhbərliyi tərəfindən istefaya göndərilməsi və təqib edilməsi ilə də sıx bağlı idi. Tarixdən yaxşı məlumdur ki, zaman-zaman belə cəhdlər olmuş, lakin xalqımızın vətənpərvər övladlarının sayıqlığı və milli təəssübkeşliyi nəticəsində xain məqsədlər puça çıxarılmışdır.

Xalqımızın ulu öndəri Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra isə seperatçıların əl-qolu tamamilə bağlanmış, bu cür niyyətə düşməyin faydasız olduğu qədər də təhlükəli olduğuna, yerindəcə cəzalandırılmaqla nəticələnəcəyinə əminlik yaranmışdır. Bununla belə, dünyadakı erməni lobbisi dinc durmurdu. Vətənimizin ərazilərini ələ keçirmək üçün məkrli planlar qurur, sovet hökumətinə lazımi təsirlər göstərmək üçün məqam gözləyirdilər. Bu imkan Qorbaçovun hakimiyyətə gəlməsi ilə yarandı. Ulu öndərin məhz Qorbaçovun əli ilə işdən uzaqlaşdırılması mənfur ermənilərin çirkin niyyətlərinin baş tutmasına "şərait yaratdı". Xalqımızın başına gətirilən o müsibətdən 30 il ötsə də onun ağır nəticələri yaddaşlardan heç vaxt silinməyəcəkdir. Törədilmiş vəhşiliklərin faciəli nəticələri göz qabağında olsa da ölkənin o vaxtkı rəhbərliyi yuxarılara yarınmaq üçün hadisələri ört-basdır etmək üçün nələrə əl atmadılar.

Yanvar faciəsinin dəhşətlərini bütün dünyaya çatdırmaq üçün Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, xalqımıza başsağlığı verərək Qorbaçov və onun komandasının törətdiyi tarixi cinayəti pislədi, bu vəhşiliyin analoqu olmadığını bütün dünyaya bəyan etdi. O Bakıdakı terror aktını həyata keçirən hərbiçiləri, onlara dəstək verən hakimiyyət nümayəndələrini, bir sözlə bu qanlı hadisədə əli onlanların hamısını lənətlədi. Bu tarixi cinayətə etiraz əlaməti olaraq Kommunist Partiyasının sıralarından çıxdığını elan etdi.

Azərbaycanda da bu qanlı hadisəyə hüquqi qiymətin verilməsi də ulu öndərin adı ilə bağlıdır. Ulu öndərin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunmuşdur. Parlament həmin məsələyə xüsusi sessiya həsr etmiş, hadisələrin əsl səbəbləri və həqiqi günahkarların adları açıqlanmış, faciəyə siyasi-hüquqi qiymət verilmişdir. Eyni zamanda Yanvar faciəsinin xalqımızın tarixində böyük siyasi əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, habelə Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədilə Bakı şəhərində xatirə kompleksinin yaradılması qərara alınmışdır.

20 Yanvar şəhidlərinin ailələrinə dövlət qayğısının göstərilməsi, həmçinin həmin hadisələrdə sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı məsələsi ulu öndər Heydər Əliyevin daim diqqətində olmuşdur. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olanlara "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir.

Ulu öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət göstərir. "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar" - bu fikirlər möhtərəm Prezidentimizə məxsusdur, xalqımızın qəhrəmanlıq salnaməsinə onun dərin ehtiramını ifadə edir. Bu gün hər birimiz üçün müqəddəs ziyarətgaha çevrilmiş 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanı məhz cənab İlham Əliyevin təşəbbüsü ilə yenidən qurulmuşdur.



20 Yanvar tarix boyu unudulmayan, xalqımızın qan yaddaşından heç vaxt silinməyən faciə olsa da, bu həm də milli birliyimizin əbədi simvoludur.

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir.

Hər il faciənin ildönümündə milyonlarla insan paytaxtın ən yüksək nöqtəsində salınan Şəhidlər Xiyabanını ziyarət edir, qəhrəmanlarının xatirəsini anır. Şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edərkən ümummilli liderimiz Heydər Əliyevin bu fikirləri bir daha yada düşür: ***"20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".***

**Əli HÜSEYNOV,**
**Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatının sədri, "Tərəqqi" medallı.**

Respublika.- 2020.- 15 yanvar.- S. 5.